# FÜZULİ MƏRKƏZİ PARKININ LAYİHƏ-SMETA SƏNƏDLƏRİNİN HAZIRLANMASI LAYİHƏSİNİN İCRASINA DAİR

## HESABAT №1

***Tarix:*** *15/03/2023*

***Sifarişçi:*** *Qarabağ Dirçəliş Fondu PHŞ*

***Podratçı:*** *By Medgalchi MMC*

| Tarix | Fəaliyyət | Qeyd |
|---|---|---|
| **MÜQAVİLƏNİN BAĞLANMASI** | | |
| 04.08.2022 | Torpaq sahəsinin parkın salınması məqsədilə Fondun istifadəsinə verilməsi barədə Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən müvafiq qərarın verilməsi.<br>İşlərin aparılması aşağıdakı dövlət qurumları ilə razılaşdırılmışdır:<br>● Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi;<br>● Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidməti;<br>● Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti;<br>● Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi;<br>● Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti;<br>● Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin "Respublika Gigiyena və Epidemiologiya Mərkəzi" Publik Hüquqi Şəxs. | |
| 27.08.2022 | Fond tərəfindən Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinə ünvanlanan müraciətə cavab olaraq bildirilmişdir ki, Füzuli şəhərinə aid olan Mərkəzi Park ərazisi Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2021-ci il minatəmizləmə layihələri üzrə Tədbirlər Planı çərçivəsində təmizlənmişdir. | |
| 14.10.2022 | Fondun müraciətinə əsasən Ekologiya və Təbii Sərvətlər Nazirliyinin "Geodeziya və Kartoqrafiya" MMC tərəfindən Mərkəzi Parkın ərazi üzrə topo-geodeziya işləri həyata keçirilmiş və pilotsuz uçuş aparatı çəkilişi ilə birgə texniki hesabat formasında Fonda təqdim edilmişdir. | |
| 28.10.2022 | Fondun müraciətinə əsasən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən sahənin müvafiq qaydada dövlət əmlakının Registrində qeydə alınması barədə məlumat (çıxarış) təqdim edilmişdir. | |

| | | |
|---|---|---|
| 29.11.2022 | Fondun müraciətinə əsasən Füzuli Mərkəzi Parkının layihələndirilməsi məqsədilə “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununun 21-ci və 50-ci maddələrinin tələblərini rəhbər tutaraq Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən “By Medgalchi” MMC ilə müqavilənin bağlanmasına razılıq verilmişdir. | |
| 15.12.2022 | “Füzuli Mərkəzi Parkı üzrə layihə-smeta sənədlərinin hazırlanması”na dair Fond və “By Medgalchi” MMC arasında M-008-031-22 nömrəli müqavilə bağlanmışdır.<br>Müqavilənin ümumi dəyəri: **395.300,0** (ƏDV daxil) AZN | |
| 15.12.2022 | Fond tərəfindən Füzuli Mərkəzi Parkının müasir beynəlxalq standartlara uyğun layihələndirilməsi məqsədilə Azərbaycan Respublikasının hədəflərini əhatə edən “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”, “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”, “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”, Füzuli şəhərinin Baş planı (ilkin versiya), həmçinin Birləşmiş Millətlər Təşkilatının “Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik”dən irəli gələn Dayanıqlı İnkişaf Məqsədləri (DİM-lər) sənədlərində əks olunan prioritetlərə və müasir şəhərsalma prinsiplərinə əsaslanaraq **“Füzuli Mərkəzi Parkının dayanıqlılığı və inklüzivliyi üzrə hədəflər”** sənədi hazırlanmış və Layihəçiyə təqdim olunmuşdur. | Sənəd ilə daha ətraflı tanış olmaq üçün QR-kodu skan edin:<br>Sənədə keçid.pdf |
| | **HAZIRLIQ İŞLƏRİ MƏRHƏLƏSİ** | |
| 06.01.2023 | Müqaviləyə əsasən, hazırlıq mərhələsi çərçivəsində (birinci mərhələ) görülən işlər nəticəsində aşağıda qeyd olunan sənədlər Layihəçi tərəfindən Fonda təqdim edilmişdir:<br>1. Sahənin mövcud vəziyyətinə dair hesabat;<br>2. Layihə tapşırığının hazırlanması (aşağıdakı məlumatlar əks olunmaqla):<br>2.1 Layihə haqqında izahat yazısı;<br>2.2 Parkın müvafiq zonalarının siyahısı;<br>2.3 Parkın ərazisində yerləşəcək obyektlərin siyahısı;<br>2.4 Topo-geodeziya işlərinə dair texniki hesabat;<br>2.5 Risklərin cədvəli və onların idarə olunması planı. | |

<table>
<tr>
<td>28.02.2023</td>
<td>Layihəçi tərəfindən parkın<br>ilkin ümumi<br>planı Fonda təqdim edilmişdir.</td>
<td>
</td>
</tr>
<tr>
<td colspan="2">PARKIN “KONSEPT LAYİHƏSİNİN HAZIRLANMASI” MƏRHƏLƏSİNDƏ AİDİYYƏTİ STEYKHOLDERLƏRLƏ KEÇİRİLMİŞ GÖRÜŞLƏR<br>Müxtəlif steykholderlərin və geniş ictimaiyyətin fikirlərini öyrənmək məqsədilə Qarabağ Dirçəliş Fondu tərəfindən layihənin müəllifi Hüseyn Mədgalçının iştirakı ilə müvafiq müzakirələr təşkil edilib.</td>
<td></td>
</tr>
<tr>
<td>19.01.2023</td>
<td>Füzuli Mərkəzi Parkının ərazisində rahat və inklüziv idman infrastrukturunun yaradılması məqsədilə idman sahəsinin və cəmiyyətin digər müvafiq nümayəndələrinin iştirakı ilə müzakirə görüşü.<br> </td>
<td>Xəbərə keçid</td>
</tr>
</table>

| | | |
|---|---|---|
| 25.01.2023 | **Füzuli icmasının fikir və tövsiyələrinin** nəzərə alınması məqsədilə müzakirə görüşü.<br>  | Xəbərə keçid |
| 01.03.2023 | Füzuli Mərkəzi Parkında **inklüzivliyin təmin olunması** məqsədilə müzakirə görüşü.<br>  | Xəbərə keçid |
| 31.01.2023<br><br>20.02.2023 | Yuxarıda adıçəkilən görüşlərin nəticəsi olaraq Fond tərəfindən parkın yerli və beynəlxalq standartlara uyğun layihələndirilməsi məqsədilə aşağıda qeyd olunan arayışlar hazırlanmış və Layihəçiyə təqdim olunmuşdur:<br>• Rahat və inklüziv idman infrastrukturunun yaradılmasına dair Arayış;<br>• Uşaqlar üçün multifunksional inklüziv oyun məkanının yaradılmasına dair Arayış. | Arayışlar ilə daha ətraflı tanış olmaq üçün QR-kodu skan edin:<br>Arayışlar |

| | | |
|---|---|---|
| 07.02.2023 | Layihənin mövcud relyefə uyğunlaşdırılmasının təmin edilməsi məqsədi ilə Fond, Layihəçi və müvafiq ekspertlərin iştirakı ilə “Füzuli Mərkəzi Parkı”nın ərazisinə səfər təşkil edilmişdir.<br> <br>  | |

| | |
|---|---|
| 02.03.2023 | Layihəçi tərəfindən steykholderlərlə müzakirə görüşlərində qeyd olunan təklif və iradlar nəzərə alınmış, parkın yenilənmiş planları Fonda təqdim edilmişdir. |









<table>
<tr><td>02.03.2023</td><td colspan="2">Layihəçi tərəfindən aşağıda qeyd olunan sənədlər Fonda təqdim olunmuşdur:<br>• Ərazi və bəzi obyektlər üzrə ilkin yenilənmiş üç-ölçülü (3D) formatda vizual görüntülər (giriş, inzibati bina, restoran, uşaq meydançası, idman meydançası).<br> <br> </td></tr>
<tr><td colspan="2">LAYİHƏNİN CARİ VƏZİYYƏTİ</td><td></td></tr>
<tr><td></td><td>Konsept layihəsi mərhələsi üzrə hazırda aşağıdakı sənədlərin hazırlanması davam etdirilir:<br>• Giriş;<br>• Ərazinin ümumi planı (tələb olunduğu halda Baş plan);<br>• Memarlıq planlaşdırma bölməsi;<br>• Konstruksiya və mühəndislik bölmələri üzrə ümumi təkliflər;<br>• Landşaft bölməsi;</td><td></td></tr>
</table>

| | | |
|---|---|---|
| | • "Parkda dayanıqlılıq və inklüzivliyin təmin edilməsi üzrə hədəflər" adlı sənədin əsasında hazırlanan "Dayanıqlılıq və inklüzivliyin təmin edilməsi üzrə təkliflər";<br>• Parkın əsas texniki-iqtisadi göstəriciləri (bina və qurğuların zonaları);<br>• Bütün ərazi və obyektlər üzrə iki-ölçülü (2D) və üç-ölçülü (3D) formatda vizuallaşma, həmçinin parkın gecə görünüşü və s.<br>• İlkin ehtimal büdcə. | |